# İnternet azadlığı məsələsinə iqtisadi baxış

Rasim Əliquliyev[1], Fərhad Yusifov[2]
*AMEA İnformasiya Texnologiyaları İnstitutu*
[1]rasim@science.az, [2]farhadyusifov@gmail.com

***Xülasə***— **İnternet azadlığının təmin olunmasına dair mövcud təcrübə araşdırılmış, ona təsir edən amillər və problemlər göstərilmişdir. İnternet azadlığının ölkənin iqtisadi göstəricilərindən asılılığı məsələsi tədqiq edilmiş və bəzi konseptual baxışlar şərh olunmuşdur.**

***Açar sözlər— İnternet azadlığı; informasiya mühit;, ÜDM (Ümumidaxili məhsul); informasiya təhlükəsizliyi***

## I. GİRİŞ

Beynəlxalq təcrübə nəzərə alınaraq, azadlığın fəlsəfəsini araşdırdıqda belə aydın olur ki, ümumiyyətlə azadlığın əsasını iqtisadi imkanlar təşkil edir. Daha dəqiq desək, hansı ölkədə ümumi daxili məhsul (ÜDM) yüksəkdirsə demək həmin ölkənin insanları iqtisadi cəhətdən daha azaddırlar. Dövlət daxili istifadə və ehtiyat üçün istehsal olunan son məhsulların və xidmətlərin toplam dəyəri kimi adambaşına düşən ÜDM ölkədə yaşayan insanların həyat səviyyəsinin əsas göstəricilərindən biri kimi qəbul edilir. Ümumiyyətlə, informasiya azadlığının əsasını ölkənin İKT siyasəti müəyyən edir. İnternetdə mövcud olan informasiya asimmetriyası problemi azadlıqların təminində həlli mürəkkəb olan məsələrdən biridir. İnternet azadlığı azadlıqların təmin olunmasının bir komponenti kimi baxılır və hazırda bu sahədə olan çatışmazlıqlar daha da dərinləşməkdədir.

## II. İNFORMASİYA AZADLIĞINA DAİR BƏZİ BAXIŞLAR

İnformasiya azadlığının kəmiyyətini (həm də keyfiyyətini) ölkənin İKT və dövlət siyasəti müəyyən edir. İnsanların informasiya azadlığı deklarativ olaraq bəyan edilsə də, hər ölkədə onun təmin olunması üçün obyektiv və subyektiv problemlərin həlli yolları tapılmalıdır. Bu isə ölkənin iqtisadi vəziyyəti, regionda tutduğu mövqe, siyasi baxışları və s. ilə birbaşa əlaqədardır. Məsələn, statistik göstəricilərə əsasən Finlandiyada adambaşına düşən 1mb/san İnternetə çıxış sürəti insanların informasiya azadlığının təmin olunması üçün minimum kimi qəbul olunur.

Dünyada İnternetdə mövcud olan informasiya asimmetriyası problemi azadlıqların təminində həlli mürəkkəb olan məsələrdən biri kimi qarşıya çıxır. İnternetin qiymətinin yüksək olması amili insanların infromasiya almaq imkanlarının məhdudlaşdılmasına səbəb olur. Başqa sözlə desək, İnformasiya resurslarına çıxış imkanı olanlar bir çox üstün biliklər əldə edir. Bu isə məntiqi olaraq *informasiya monopoliyası, informasiya diktaturası, informasiya imperializmi* kimi anlayışların formalaşmasına səbəb olur.

Azadlıqların təmin olunması, mövcud mühitdəki yazılmamış qaydaların olması, xaos, anarxiya və s. məntiqi olaraq hər növ cinayətkarlığın çiçəklənməsi üçün mühitin formalaşması deməkdir. Bu mərhələ üçün ən mühüm məsələlərdən biri informasiya mühitinin formalaşdırılması və inkişafıdır.

İnformasiya mühiti – elə bir mühitdir ki, orada informasiya yaradılır, saxlanılır, emal edilir və ötürülür. Cəmiyyətdə olan informasiya mübadilələrinin bütün formaları icra edilir və bunlar cəmiyyətin vahid bir ictimai orqanizm kimi varlığını və fəaliyyətini təmin edir. Ümumi halda informasiya mühitini üç tərkib hissə kimi göstərmək olar :

- ölkədə baş verən informasiya əlaqələrinin bütün formalarda olan məlumatlarını əks etdirən dillər;
- informasiyanın kontent-həcmi, məna yükü və dəyərliliyi (əhəmiyyəti);
- informasiya mübadiləsinin maddi əsasını təşkil edən informasiya-kommunikasiya infrastrukturu.

Demək olar ki, kontentlər və informasiya-kommunikasiya infrastrukturunun xarakteristikaları məcmuə, toplu halında ölkənin informasiya fəzasını təyin edir.

İnformasiya mühiti anlayışı həm bütövlükdə cəmiyyətə, həm də onun istənilən fəaliyyət sferasına aid edilir. Qeyd etmək olar ki, elmin və ya onun ayrı-ayrı sahələrinin informasiya mühiti haqqında (iqtisadiyyatın, mədəniyyətin və s. informasiya mühiti) dünyanın, ölkənin, regionun, şəhərin informasiya mühiti kimi danışmaq olar.

Müxtəlif ölkələrdə informasiya mühitinin inkişafı zaman və məkan daxilində qeyri-müntəzəm baş verir və bu ölkələrin inkişaf səviyyəsindən asılıdır. Müasir cəmiyyətdə informasiya mühiti əsasən şəbəkə strukturuna malikdir. İnformasiya mühitinin nöqtələri arasında əsas əlaqə forması İnternetdir və o da bir subyektin digər bir subyektlə informasiya əlaqəsinin texnoloji imkanını təmin edir. Bu baxımdan İnternet azadlığı problemi də azadlıqların təmin olunmasının bir komponenti kimi qarşıya çıxır və son zamanlar mövcud problemlər daha da dərinləşməkdədir. Aktual məsələlər kimi İnternetin hüquqi əsaslarının işlənilməsi göstərilir. Təbiidir ki, İnternet mühitində baş verən proseslər mövcud qanunlarla tənzim oluna bilməz. Yaradılacaq normativ-hüquqi bazanın əsasında isə istifadəçilərin azadlıqlarından danışıla bilər.

## III. İNTERNET AZADLIĞINA TƏSİR EDƏN AMİLLƏR

Ümumiyyətlə, İnternet azadlığına təsir edən obyektiv və subyektiv amillər vardır [1,2]. Onlara nümunə kimi milli standartlara uyğun informasiya resurslarının olmaması, auditin aparılmaması, əks əlaqə mexanizmlərinin yoxluğu, dövlətin İnternetin inkişafında maraqlı olmaması və s. göstərilə bilər. Ölkənin sərhədləri çərçivəsində müxtəlif filtrlərin, analizatorların qurulması, istifadəçilərin İnternetlə münasibətlərinin bütünlüklə nəzarətə götürülməsi, veb-saytlara,

sosial şəbəkələrə çıxışın məhdudlaşdırılması da İnternet azadlığına təsir edən amillərdir.

Digər mühüm məsələ son zamanlarda İnternetin enerji təhlükəsizliyi probleminin aşkar şəkildə qabardılmasıdır. Belə ki, cəmiyyətin informasiya təhlükəsizliyinin əsas komponenti sayılan enerji təhlükəsizliyi məsələsi daim diqqət mərkəzində saxlanılmalıdır. Nəzərə alınmalıdır ki, enerji təhlükəsizliyi bir dövlətin daxili məsələsi olmadığı üçün hər hansı bir ölkədə olan serverin sıradan çıxması mövcud informasiya resurslarına digər ölkələrdən də çıxış imkanını məhdudlaşdırmış olur.

İnkişaf etməkdə olan ölkələrdə İnternet azadlığına təsir edən amillər sırasında İnternetdən istifadə qiymətlərinin süni şəkildə yüksəldilməsi, provayderlər tərəfindən istifadəçilərə təklif olunan xidmətlərin qənaətbəxş olmaması, normal rəqabət mühitinin formalaşdırılmaması və s. göstərilə bilər [1,2].

Ümumiyyətlə, iqtisadiyyatı zəif olan inkişaf etməkdə olan ölkələrdə maksimal İnternet azadlığı tələb etmək mövcud reallığı əks etdirmir. Bu baxımdan ölkənin iqtisadi potensialı nəzərə alınaraq İnternet azadlığını xarakterizə edən indikatorlar sistemi işlənilməlidir. Məsələn, ölkədə adambaşına düşən internet sürətindən çıxış edərək ölkələri klassifikasiya etmək və regionlar üzrə siniflərə bölmək olar. Əlbəttə ki, bu qiymətləndirmə müəyyən dövrlə bağlıdır. Çünki zaman keçdikcə ölkələrin iqtisadi vəziyyəti dəyişir, daha dəqiq desək İnternet imkanları dəyişir. Ölkələr bir sinifdən digərinə keçir. Beləliklə, dünya ölkələrində, regionlarda İnternet azadlığının coğrafi mənzərəsini almaq olar.

## IV. ADAMBAŞINA DÜŞƏN ÜDM-İN HƏCMİ İLƏ İNTERNET İSTİFADƏÇİLƏRİN SAYI ARASINDA ƏLAQƏ

İnkişaf etməkdə olan ölkələrdə informasiya texnologiyalarının sürətli inkişaf etməməsi və İnternetə çıxış imkanının olduqca məhdud və ya heç olmaması çox sayda səbəblərlə əsaslandırılır:

- Gəlirlərin aşağı səviyyədə olması əhalinin və şirkətlərin İnternetə çıxışını və ümumiyyətlə, müasir texnologiyaların imkanlarından istifadə etmələrini məhdudlaşdırır;
- Şəhərlərdə, ərazilərdə infrastrukturun istənilən səviyyədə olmaması və eləcə də, potensial istehlakçıların sayının (sıxlığının) az olması infrastrukturun inkişafı üçün xərclərin daha da artmasına gətirib çıxarır;
- İnfrastrukturun zəif inkişaf etməsi və onlara çıxış imkanlarının çox məhdud olması İnternetə çıxışın qiymətinin yüksək olmasına səbəb olur;
- Əhalinin savadlılıq səviyyəsinin aşağı olması, kompüter biliklərinin yetrəincə olmaması;
- Normativ-hüquqi bazanın formalaşdırılmaması və ya olmaması.

Araşdırmalarda daha çox nəzərə çarpan amillərdən biri kimi ölkələrin iqtisadi göstəricilərinə və onlar arasındakı fərqlərə diqqət yetirilir [3]. Adambaşına düşən ÜDM-in həcmi İnternet bazarında vətəndaşların və şirkətlərin potensial istehlakçı imkanlarını müəyyənləşdirir. Bu göstəricilərin artması ilə əhali arasında İnternet istifdəçilərinin payıda çoxalır. Bununla yanaşı, adambaşına düşən ÜDM-in yüksək və lap yüksək olduğu ölkələrdə İnternet istifadəçilərin sayı da müvafiq olaraq daha çoxdur. Ölkəmizdə 2002-2010-cu illər üzrə adambaşına düşən ÜDM-in həcmi ilə internet istifadəçilərinin sayının korelyasiyasına baxsaq aydın şəkildə bu tendensiyanı müşahidə etmək olar [4].




Başqa sözlə, adambaşına düşən ÜDM ölkədə yaşayan insanların həyat səviyyəsinin əsas göstəricilərindən biri kimi qəbul edilir. Ölkədə adambaşına düşən ÜDM-in həcmi yüksəkdirsə demək həmin ölkənin insanları iqtisadi cəhətdən daha azaddırlar. İqtisadi azadlığın təmin edilməsi isə insanların İnternetə çıxış imkanına malik olması deməkdir və bu mümkün olduğu halda isə İnternet azadlığın təmin olmasından danışmaq olar. Qeyd etmək lazımdır ki, İnternetin inkişafı prosesinə təsir edən amillər xətti xarakter daşımır. İqtisadi amillərin təsiri prosesin müəyyən xronoloji mərhələsində, ya da müxtəlif təsirlərin ardıcıllığından asılı olaraq formalaşır.

## NƏTİCƏ

Adambaşına düşən ÜDM-in həcmi ölkədə yaşayan insanların həyat səviyyəsinin əsas göstəricilərindən biri kimi qəbul edilir. Adambaşına düşən ÜDM-in həcmi İnternet bazarında vətəndaşların potensial istehlakçı imkanlarını müəyyənləşdirir. Bu göstəricilərin artması ilə əhali arasında İnternet istifdəçilərinin payı da artır. Bu onu deməyə əsas verir ki, İnternet azadlığın təmin edilməsi iqtisadi amillərdən asılıdır və bu sahədə araşdırmaların aparılmasına ehtiyac vardır.

## ƏDƏBİYYAT

[1] Д.В. Захарченко, Интернет-технологии как фактор развития инфраструктуры современной экономики, Экономика и управление, №5(78), 2011, стр. 122-125

[2] Т.В. Максиянова, Влияние интернет-экономики на ВВП России, 2012, http://vernadsky.tstu.ru/

[3] S. Johnson, J. A. Robinson, and P. Yared, Income and Democracy, 2008, http://www0.gsb.columbia.edu

[4] Country profile statistics, www.indexmundi.com